https://doi.org/10.30546/114578.2025.7.509

# PROFESSOR AFAD QURBANOVUN ALİ MƏKTƏB PEDAQOGİKASI VƏ METODİKASI SAHƏSİNDƏ ELMİ FƏALİYYƏTİ

**Zemfira Abbasova**
*filologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://Orcid/org/0000-0001-2673-8634*
*zema.abbasova.aliyeva@mail.ru*

**Xülasə**

Məqalədə professor Afad Qurbanovun ali məktəb pedaqogikası və metodikası sahəsində elmi fəaliyyətindəki xidmətlərindən söhbət açılır. Afad Qurbanov gərgin elmi-pedaqoji fəaliyyətinə baxmayaraq, müstəqil respublikamızın ictimai-siyasi həyatında da fəal iştirak etmişdir. Alimin elmi fəaliyyətinin mühüm bir hissəsini ali məktəb pedaqogikası və metodikası təşkil edir. O, ali məktəblərdə tədris olunan bir çox dilçilik fənlərinin (Ümumi dilçilik, Türkoloji dilçilik, Azərbaycan dili nitq mədəniyyəti, Bədii mətnin linqvistik təhlili, Onomalogiya və s.) tədris fənləri kimi müəyyənləşdirilməsində əvəzsiz xidmət göstərmişdir.

**Açar sözlər:** Afad Qurbanov, ali məktəb pedaqogikası, metodika, dilçilik fənni, elmi fəaliyyət.

# SCIENTIFIC ACTIVITY OF PROFESSOR AFAD GURBANOV IN THE FIELD OF HIGHER SCHOOL PEDAGOGY AND METHODOLOGY

**Zemfira Abbasova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The article discusses the great contributions of professor Afad Gurbanov in the field of higher education pedagogy and methodology. Afad Gurbanov, despite his intense scientific and pedagogical activity, has also actively participated in the socio-political life of our independent republic. A significant part of his scientific activity is made up of higher education pedagogy and methodology. A. Gurbanov

has made exceptional contributions to the definition and formation of many linguistic disciplines taught in higher education (general linguistics, Turkological linguistics, Azerbaijani speech culture, linguistic analysis of literary texts, onomology and etc.)

**Key words:** Afad Gurbanov, higher education pedagogy, methodology, linguistic discipline, scientific activity.

## НАУЧНЫЕ ЗАСЛУГИ ПРОФЕССОРА АФАДА ГУРБАНОВА В ОБЛАСТИ ПЕДАГОГИКИ И МЕТОДИКИ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

**Земфира Аббасова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В статье рассматриваются большие заслуги профессора Афада Гурбанова в области педагогики и методики высшего образования. Афад Гурбанов, несмотря на свою интенсивную научно-педагогическую деятельность, также активно участвовал в общественно-политической жизни нашей независимой республики. Значительную часть его научной деятельности составляет педагогика и методика высшего образования. А. Гурбанов внес исключительный вклад в определение и формирование многих лингвистических дисциплин, преподаваемых в высшей школе (общее языкознание, тюркологическое языкознание, азербайджанская речевая культура, лингвистический анализ литературных текстов, ономалистика и т. д.)

**Ключевые слова:** Афад Гурбанов, педагогика высшей школы, методика, лингвистическая дисциплина, научная деятельность.

### Giriş/Introduction

Prof. Afad Qurbanovun elmi fəaliyyətinin mühüm bir hissəsini ali məktəb pedaqogikası və metodikası təşkil edir. Onun bir müddət orta məktəbdə, uzun illər isə ali məktəbdə çalışması elmi yaradıcılığında xüsusi bir iz qoymuşdur. Rus məktəblərinin X sinfi üçün "Azərbaycan dili" dərsliyinin müəllifi kimi Afad Qurbanovu respublikanın təhsil işçiləri yaxşı tanıyırdı. O, uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetində dekan, rektor və kafedra müdiri vəzifələrində işləyərkən ali məktəbdə dilçilik fənlərinin tədrisi keyfiyyətini daim yüksəltməyə çalışmış, bu sahədə bir çox elmi-metodik məqalə və kitabçalar nəşr etdirmişdir.

**Tədris proqramları hazırlığında A.Qurbanovun xidmətləri.** A.Qurbanovun 1962-2009-cu illər ərzində ali məktəblər üçün Azərbaycan və türk dilçiliyi ilə bağlı tərtib etdiyi tədris proqramları və çalışmalar xüsusilə diqqəti cəlb edir. Bu proqram və çalışmalardan ali məktəblərdə uzun illərdir ki, geniş istifadə olunur, müəllimlər və tələbələr onlardan dəyərincə faydalanırlar. Onun hazırladığı tədris proqramları (pedaqoji universitetlər üçün bakalavr hazırlığı üzrə Azərbaycan ədəbi dili tarixi, Dilçilik tarixi, Ümumi toponimika, Dilçiliyə giriş, Bədii mətnin linqvistik təhlili, Türkoloji dilçilik, Türk dillərinin müqayisəli morfologiyası, Azərbaycan dilinin üslubiyyatı, Azərbaycan dialektologiyası, Azərbaycan nitq mədəniyyəti, Azərbaycan onomalogiyasının əsasları, magistr hazırlığı üzrə Türkoloji dilçiliyin aktual problemləri, Azərbaycan dilçiliyinin müasir problemləri, Türkoloji dilçiliyin tarixi, Ümumtürk antroponimiyasının əsasları, Dilçiliyin sahələri və s.) və çalışmalar (onomastik, semantik, derivatoloji, frazeoloji, leksikoloji çalışmalar) Azərbaycan dilinin, ümumi dilçilik və türk dilçiliyinin müəyyən sistem və ardıcıllıqla, elmi əsaslarla öyrənilməsində əhəmiyyətli rol oynamışdır. Həmin proqramlarda dilçiliyin tədrisi sahəsində mövcud olan dolaşıq, mübahisə doğuran məsələlər dəqiqləşdirilmiş, aydınlıq gətirilmişdir. Beləliklə, A.Qurbanov 45 ildən artıq bir müddət ərzində ölkədə təhsilin təşkilinə öz tarixi töhfəsini vermişdir.

**“Dilçilikdən kurs və diplom işləri”.** Alimin 1985-ci ildə nəşr etdirdiyi “Dilçilikdən kurs və diplom işləri”adlı kitabı müəllimlər üçün faydalı bir vəsaitə çevrilmişdir. Dilçi-alim ilk dəfə olaraq respublika ali məktəblərində tədris olunan dlçilik fənlərini qruplaşdırmış və onların tədrisində bir sistem yaratmağa nail olmuşdur. O, dilçilik fənlərini iki böyük qrupa ayırmışdır:

1. Ümumdilçilik fənləri (Ümumi dilçilik və Dilçilik tarixi);
2. Xüsusi dilçilik fənləri (Tarixi-linqvistik fənlər, Müasir dil fənləri, Üslubi linqvistik fənlər, Ortoloji linqvistik fənlər) [Sadıqova, 2019:28].

Bu vəsait dilçilik fənnindən kurs və diplom işləri yazacaq tələbələrə və onların rəhbərlərinə kömək məqsədi ilə hazırlanan bir vəsait olmaqla yanaşı, özünün məqsədi, məzmunu və pedaqoji əhəmiyyəti baxımından olduqca lazımlı və dəyərli mənbədir. Belə ki, tələbələrimizin çox vaxt çətinlik çəkdikləri tələbə elmi-tədqiqat, kurs və diplom işlərinin mövzusunun müəyyənləşdirilməsi, plan tərtibi, ədəbiyyat seçmək, işin hazırlanması metodikası, ilk mənbələr üzərində işləmək qaydası, toplanmış materialların qruplaşdırılması və ümumiləşdirilməsi, işin yazılma mexanizmi, müdafiə qaydası və s. məsələlər bu kitabda olduqca məzmunlu və sistemli şəkildə öz əksini tapmışdır.

İki hissədən ibarət olan bu dərs vəsaitinin birinci fəsli ümumpedaqoji və metodik aspektdə işlənilmişdir. Müəllif burada tələbə elmi-tədqiqat və tədris-tədqiqat işlərinin mahiyyətini şərh etmiş, kurs və diplom işlərinin məqsədi, mövzusu, məzmunu və növlərini göstərmiş, işin təşkili məsələlərini − dekanlığın, kafedranın, rəhbər müəllimin, tələbənin vəzifələrini və iş xüsusiyyətlərini, həmçinin işə rəy verilməsi və müdafiə formalarını geniş və ətraflı şəkildə yazmışdır.

Vəsaitin ikinci hissəsində kurs və diplom işlərinə aid nümunəvi mövzular seçilib verilmişdir. 326 adda kurs işi, 206 adda diplom işi mövzuları tədqiqat baxımından maraq doğuran mövzulardır.

Vəsaitdə verilən ədəbiyyat siyahısı da tələbələrin iş prosesini optimallaşdırmaqla yanaşı, dərs vəsaitinin sanbalını daha da artırır.

Prof. A.Qurbanovun bu əsərini dəyərli edən mühüm cəhətlərdən biri də onun təkcə dilçilikdən kurs və diplom işləri yazacaq Filologiya fakültəsi tələbələri üçün deyil, elmi-tədqiqat işi aparacaq, kurs və diplom işləri yazacaq bütün tələbələr və onlara rəhbərlik edəcək müəllimlər üçün qiymətli pedaqoji və metodik mənbə olmasıdır.

Səkkiz çap vərəqi həcmində olan bu əsər tələbələr üçün zəruri olan praktik materiallarla da çox zəngindir. Bu da kurs və diplom işi üzərində işləyərkən tələbənin nəyi, necə, hansı formada tərtib etməsi, yazması baxımından olduqca faydalıdır.

**“Azərbaycan toponimikası” kursu.** Məlumdur ki, hər bir tədris fənni müəyyən zərurət və ehtiyac əsasında, uzun illərin təcrübəsi, zəngin nəzəri düşüncə və müddəalara cavab kimi yaranır. A.Qurbanovun ali məktəblərdə tədris olunan bir çox dilçilik fənlərinin (ümumi dilçilik, türkoloji dilçilik, Azərbaycan nitq mədəniyyəti, bədii mətnin linqvistik təhlili, onomalogiya və s.) müəyyənləşdirilib formalaşdırılmasında müstəsna xidmətləri olmuşdur.

Alim hələ 60-cı illərdən xüsusi adlarla maraqlanaraq axtarışlar aparmış, 20 ildən artıq bir dövr ərzində − 1981-ci ilə qədər Filologiya fakültəsində toponimikadan xüsusi kurs mühazirələri oxumuşdur. Həmin kurs əvvəlcə “Ümumi toponimika”, sonra isə konkretləşdirilərək “Azərbaycan toponimikası” adlandırılmışdır. A.Qurbanov “Azərbaycan toponimikası” kursunun səmərəli təşkil olunması və ona düzgün elmi istiqamət verilməsi üçün “Azərbaycan toponimikası” adlı proqram tərtib və nəşr etdirmişdir. Hazırda pedaqoji universitetlərdə tədris olunması vacib hesab edilən fənlərdən biri də “Azərbaycan dilinin onomologiyası”dır. A.Qurbanov bu fənnin proqramını tərtib edib nəşr

etdirməklə onomastik vahidlərin tədrisə gətirilməsi və sistematik şəkildə öyrənilməsinin əsasını qoymuşdur.

Dilçi-alim 1985-ci ildə pedaqoji institutlar üçün "Müasir Azərbaycan ədəbi dili" dərsliyini nəşr etdirmişdir. Dərslikdə Azərbaycan dilçiliyində ilk dəfə olaraq onomalogiya şöbəsi dilçiliyin digər bölmələri ilə yanaşı tədqiq olunur. Bununla da dilçiliyin müstəqil bir şöbəsinin – onomalogiya şöbəsinin ali məktəblərdə tədris olunmasının əsası qoyulmuşdur. A.Qurbanov bu əsərində onomologiya şöbəsinin dilçiliyin digər şöbələri kimi formalaşdığını və Azərbaycan dilçiliyinin gənc sahəsi olduğunu elmi faktlarla izah etmişdir. Dərslikdə müasir Azərbaycan ədəbi onomastik sistemi, onomastik leksikanın antroponimlər, etnonimlər, toponimlər, hidronimlər, zoonimlər, kosmonimlər kimi qrupları, onomastik vahidlərin üslubi rolu, onomastik vahidlərin düzgün deyilişi və yazılışı kimi problemlər faktlar əsasında şərh olunmuşdur.

Keçmiş sovetlər ölkəsində 50-ci illərdən başlayaraq "Ümumi dilçilik" dərsliyi, bir qayda olaraq, Moskvada yazılar, "Dilçiliyə giriş"in davamı kimi son kursda tədris olunardı. Uzun müddət dilçilik sahəsində araşdırmalar aparan, mühazirələr oxuyan A.Qurbanov hər dil ailəsinə uyğun "Ümumi dilçilik" fənninin tədrisini vacib saymış, öz dövrü üçün cəsarətli addım ataraq fənnin tədrisi üçün əvvəlcə proqram, sonra da "Ümumi dilçilik" fənninin pedaqoji institutlar üçün variantını hazırlamışdır. "Ümumi dilçilik" kitabı ümumi dilçilik məsələlərinə dair Azərbaycan dilində yazılmış ilk dərslik olmuşdur. Dərslikdə seçmə-sistemləşdirmə prinsipi əsas götürülmüşdür.

**Nəticə/Conclusion**

Afad Qurbanov iki cilddən ibarət "Müasir Azərbaycan ədəbi dili", "Ümumi dilçilik", "Bədii mətnin linqvistik təhlili" dərsliklərinin, habelə rus məktəblərinin XI sinfi üçün "Azərbaycan dili" dərsliyinin müəllifi kimi respublikanın bütün təhsil işçilərinə yaxşı tanışdır. O, ADPU-da dekan, rektor və kafedra müdiri vəzifələrində işlərkən ali məktəbdə dilçilik fənlərinin tədrisi keyfiyyətini daim yüksəltməyə çalışmış, bu sahədə bir çox elmi-metodik məqalə və kitablar nəşr etdirmişdir.

Keçirdiyi elmi konfranslar, simpoziumlar, təcrübi məşğələlər, yazdığı dərsliklər, dərs vəsaitləri, praktikumlar, metodik göstərişlər, çalışmalar, tədris proqramları Azərbaycan dilinin, eləcə də ümumi və türkoloji dilçiliyin müəyyən sistem və ardıcıllıqla, elmi əsaslarla öyrədilməsində əhəmiyyətli rol oynamışdır.

A.Qurbanovun təşəbbüsü və səyi nəticəsində 1984-cü il dekabrın 20-22-də "Respublikanın ali məktəblərində Azərbaycan dilinin öyrənilməsinin təkmilləşdirilməsi" mövzusunda ilk geniş elmi konfrans keçirilmişdir. O, eyni

zamanda, 90-cı illərdə ölkədə özəl təhsil müəssisələrinin yaradılmasında iştirak etmiş, başçılıq etdiyi xüsusi komissiya tərəfindən bu gün uğurla təhsil sistemimizdə fəaliyyət göstərən bir sıra özəl institut və universitetlərin ("Qərb Universiteti" və s.) fəaliyyətinə icazə verilmişdir [Tanrıverdi, 2018:121].

## ƏDƏBİYYAT/REFERENCES

1. Qurbanov, A. (2006). Biblioqrafiya. – Bakı: "Elm". −214 səh.
2. Sadıqova, S. (2019). Dilçilik elmində Afad Qurbanov irsi. – İstanbul: İmak. − 200 s.
3. Tanrıverdi, Ə. (2018). Türkologiyamızın Afad Qurbanovu. – Bakı, − 244 s.
4. Tanrıverdi. Ə. (2002). "Kitabi-Dədə Qorqud" və Qərb ləhcələri. – Bakı,− 171 s.
5. Qurbanov A. (1964). Azərbaycan dilinin leksiologiyası. – Bakı: APİ. −137 s.
7. Qurbanov, A. (1964). Müasir Azərbaycan dilinin semasiologiyası. – Bakı: APİ. − 51 s.
8. Qurbanov, A. (1963). Müasir Azərbaycan dilinin qrafika və orfoqrafiyası. – Bakı: APİ. − 67 s.
9. Qurbanov, A. (1965). Azərbaycan ədəbi və danışıq dili. – Bakı: APİ. − 43 s.
10. Qurbanov, A. (1966). Müasir Azərbaycan dilinin fonetika və orfoepiyası. – Bakı: APİ. − 40 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *26.04.2025*
*Qəbul edilib* *13.05.2025*
*Nəşrə tövsiyə edib* *Tamilla Vahabova*
*pedaqogika elmləri doktoru, professor*